# Şəkidə qurulan “Dar ağacı”

## Bəxtiyar Vahabzadə -100

Bu günlərdə şairin 100 illik yubileyi ərəfəsində Şəki Dövlət Dram Teatrının səhnəsində Əməkdar İncəsənət xadimi Mirbala Səlimlinin rejissor traktofkasında ədibin qələmə aldığı "Dar ağacı" tarixi faciə janrında olan pyesinin tamaşasına maraqla baxdım.

*(Əvvəli ötən sayımızda)*



Pyesdə əsas obrazlaradan biri Xilafətin Azərbaycanda valisi olan Akşin surətidir. Bu obrazı aktyor Xəyal Salahov ifa edir. Qeyd etmək lazımdır ki, Akşin "Dar ağacı" pyesinin əsas obrazlarından biridir və o, pyesin dramatik mühitində mühüm rolu olan xarakteri hesab edilir. Tamaşa boyu aktyorun ifasında Akşin obrazı qardaşının əks istiqamətinə yönəlməklə, ərəb xilafətinin göstərişlərinə daha çox bağlılığı ilə diqqət mərkəzində olmağı bacarır. O, vətəninə, öz xalqına olan bağlılığında daha zəif birisi olmaqla güc və qorxu vasitəsilə üsuli-idarəetməni gələcək rifahı kimi görür. Aktyorun ifasında Akşin təkcə ideallara bağlı olmayan, həm də duyğusal, insani tərəfləri olan bir obrazdır. Onun daxili konfliktləri, qorxuları, sevgi və dostluq duyğuları səhnədə ifa vasitələrində müxtəlif detallarla təqdim edilir. Həmçinin Akşinin taleyi pyesin tragik xəttini təşkil edir.

Tamaşada maraqlı surətlərdən biri də Sabutay obrazıdır. Sabutay obrazı Babək kimi milli qəhrəmanların və Akşin kimi mübarizlərin soyundan doğulan gənc nəsli təmsil edir. Onun vasitəsilə təqdim edilən səhnə əsərində azadlıq və milli azadlıq uğrunda mübarizənin davamlılığı göstərilir. Sabutay, həm keçmişin qəhrəmanlarını, həm də indiki dövrün ümidlərini özündə birləşdirir. Həmçinin Sabutay obrazı gəncliyin idealizmini və enerjisini özündə əks etdirir. O, öz dövründə baş verən zülm və ədalətsizliklərə qarşı çıxan, gələcəyə ümidlə baxan bir gənc kimi təqdim olunur. Tamaşa boyu Sabutayın xarakterində azadlıq və ədalət arzusu güclü şəkildə hiss olunur. Bu obrazı aktyor Rəşid Mirizadə maraqlı detallarla təqdim etməyə müvəffəq ola bilmişdir. Belə ki, Sabutay obrazının təqdimatında hadisələrin cərəyan etməsi fonunda xüsusi olaraq ailənin və nəsillərin azadlıq uğrunda mübarizədə birləşməsi göstərilməklə təqdim edilir.

Aktrisa Lalə Məmmədin ifasında Akşin və Babəkin anası obrazı da orjinal səpkili surətlərdən biridir. Maraqla izlənilən və Lalə Məmmədin ifasında təqdim olunan Ana səhnədə hər zaman qadın iradəsinin eləcə də gücünün təcəssümü olaraq zorakılığa və ədalətsizliyə qarşı dayanan, ruhdan düşməyən bir obraz olaraq təqdim edilir. Aktrisanın ifasında Ana surəti həmçinin Vətənin, millətin, xalqın analıq rəmzidir. Onun çəkdiyi ağrılar, iztirablar, övladlarını azadlıq yolunda itirməsi, Vətənin işğal və zülm altında qalan halını simvolizə edir. Lalə Məmməd obrazın daxili aləmində şəxsi faciəni, həm də xalqın ümumi faciəsi olaraq özündə birləşdirməklə böyük ustalıqla təqdim etməyə müvəffəq ola bilmişdir. Həmçinin aktrisanın ifasında Ana nəsillərarası mübarizə ruhunun daşıyıcısı olmaqla keçmişin mübarizə tarixini, Babəkin dövründən Akşin və Sabutaya qədər uzanan azadlıq ruhunun davamlılığını özünün maraqlı ştrixli səhnə oyunu ilə təqdim etməklə ifadə edir.

Tamaşa boyu maraqla izlənilən surətlərdən biri də Akşinin qızı Çılğın obrazıdır. Gənc, cəsarətli və azad ruhlu bir qız olan Çılğın sərbəst və həyatda öz yolunu seçmək istədiyini aşkaranə şəkildə bildirən obraz olaraq təqdim edilir. Obrazın daxili aləmindən irəli gələrək aktrisa Gülxar İmamhüseynovanın ifasında təqdim edilən Çılğın obrazı qadın azadlığı və şəxsiyyətin formalaşması baxımından maraqla izlənilir. Aktrisa tərəfindən obraz həm fərdi, həm də sosial mübarizənin təmsilçisi olaraq təqdim edilir. Çılğın həm də səhnədə gənc, sərbəst və idealist ruhu ilə diqqət mərkəzində olmağı bacarır.

Tamaşa boyu İbn Tahir Akşinin yaxın dostu, vəziri və etibarlı məsləhətçisi kimi çıxışlar edir. O, Akşinə ağıllı və praktik məsləhətlər verir, onun mübarizəsində sanki strateji rol oynayır. Məhz obraz düşüncəli, ağıllı və strateji təfəkkürə malik şəxs kimi təqdim olunur. İbn Tahir mübarizənin yalnız güc yolu ilə deyil, ağılla da aparılmasının tərəfdarıdır. Ancaq Akşinin arxasından onun əməllərini yadelli işğalçılara çatdırması vəzifə və tax-tac, səltənət üzərində istək və arzularını da dilə gətirməklə Ərəb xilafətinə bir növ sədaqətini nümayiş etdirməklə sonda bu hakimiyyətə sahib olur. Məhz Akşin də İbn Tahirin əli ilə edam edilir. Bu obrazı maraqlı cizgiləri ilə aktyor Fərahim Fətəliyev ifa edir. Obraz aktyorun ifasında maraqla izlənilir və diqqət mərkəzində olmağı bacarır.

Ərəb ordusunun sərkərdəsi və hakimiyyət nümayəndəsi kimi təqdim olunan İbn Süheyl obrazı da hadisələrin gedişatı zamanı baş verən vəziyyətlərin cərəyan etməsində əsas qüvvə olaraq təqdim edilir. O, hakimiyyətin və işğalçı qüvvələrin bir parçası kimi, zorakı və avtoritar mövqedə dayanır. İbn Süheyl obrazı vasitəsilə tamaşa boyu işğalçı qüvvələrin, zorakılıq və ədalətsizliklə yanaşan bir təbəqənin simvolu təqdim edilir. Tamaşa boyunca İbn Süheyl obrazı həm də qorxu və təzyiq vasitəsilə xalqı idarə edən bir fiqurdur. Aktyor Pərviz İsmayılovun ifasında bu obraz davranışları ilə pyesdə zorakılığın və ədalətsizliyin təzahürü olaraq təqdim edilir. Aktyor həmçinin öz ifası ilə eyni zamanda, işğalçı qüvvələrin gücünü və zor gücünə əsaslanan hakimiyyətini maraqlı səhnə detalları ilə simvollaşdıraraq tamaşaçıya təqdim edə bilir.



Altay pyesdə gənc, enerjili və idealist obraz kimi təqdim olunur. O, azadlıq uğrunda mübarizəyə qoşulan yeni nəsli təmsil edir. Altayın xarakteri mübarizənin davamlılığını və gələcəyə olan ümidlərinin göstəricisidir. O, çətinliklərə baxmayaraq, qorxmadan mübarizədə iştirak edir. Cəsarəti və iradəsi ilə pyesdə gənclərin rolunu ön planda təqdim etməyə müvəffəq olur. Obraz aktyor Elvin Mabudovun maraqlı səhnə ştrixləri ilə diqqət mərkəzində olmağı bacarır. O, səhnədə həm də gənclərin enerjisi və idealizmi ilə ümidi birlikdə simvolizə edir. Məhz bu səbəbdən Elvin Mabudovun ifa tərzi hadisələrin fonunda maraqla izlənilir.

Səhnədə təqdim olunan obrazlardan biri də ənənəvi və mühafizəkar qadın obrazı olaraq təqdim edilən aktrisa Nazilə İmamhüseynovanın ifasında olan Çılğının xalası surətidir. Müəllif ideyasına görə Çılğının xalası pyesdə daha çox ənənəvi dəyərlərə bağlı, mühafizəkar və stereotipik qadın obrazı kimi təqdim olunur. O, cəmiyyətin və ailənin mövcud qaydalarını qorumağa çalışan, dəyişikliklərə ehtiyatla yanaşan bir fiqurdur. Aktrisanın ifasında məhz bu obraz müəllif ideyasına həmçinin rejissor traktofkasından irəli gələrək dəyişikliklərdən eləcə də yeniliklərdən qorxan, gələcəyə qarşı isə tərəddüd hisslərinin daşıyıcısı kimi təqdim olunur. O, azadlıq və mübarizə ideyalarına şübhə ilə yanaşır, hər zaman isə təhlükəsizlik və sabitlik arzusu ilə hərəkət etməyə çalışır. Çılğının xalası obrazı, gənclərin idealizmi ilə yaşlı nəsilin ehtiyatlılığı arasında yaranan fikir ayrılıqlarını təmsil edir. Bu, həm də ailə daxilində və cəmiyyətdə nəsillərarası qarşıdurmanın simvolu olaraq da təqdim olunur. Aktrisanın maraqlı ifa tərzi həmçinin tamaşa boyu qadınların cəmiyyətdəki stereotipik rolları və məhdudiyyətlərini göstərməyə müvəffəq ola bilir. Həmçinin aktrisa Nazilə İmamhüseynova Xala obrazı ilə ənənəvi qadın rolunun, onun mühafizəkar mövqeyinin mənfi tərəflərini özündə daha geniş formada ehtiva etməklə əks etdirə bilir.

"Dar ağacı" pyesində əsas obrazlardan biri də Yarqıtay surətidir. Yarqıtay pyesdə Ərəb xilafətinin hərbi sərkərdəsi olaraq təqdim edilir. O, fiziki güc, təzyiq və qorxu vasitəsilə xalqı itaətdə saxlamağa çalışan rejimin bir qoludur. Onun üçün əsas məsələ xalqı susdurmaq, itaətə məcbur etmək və üsyanı yatırmaqdır. Onun üçün haqq, ədalət, vicdan kimi dəyərlərin heç bir əhəmiyyəti yoxdur. O, yalnız əmr alır və onu icra edir. Bu, onu əxlaqi məsuliyyətdən uzaq, kor-koranə itaət edən və zalımlığı peşəyə çevirən bir şəxsiyyət olaraq təqdim edilir. Bu obraz aktyor Azad Məmmədov tərəfindən münaqişənin dramatik gərginliyini artıran surət olaraq təqdim olunur. Yarqıtay obrazı pyesdə əsas dramatik qarşıdurmalardan birinin xalqın iradəsi ilə işğalçı zor arasında dayanır. Onun sərtliyi, təhdidləri və amansız qərarları mübarizənin nə qədər çətin və fədakarlıq tələb edən olduğunu bir daha göstərir.

Quruluşçu və geyim üzrə rəssam Nicat Məmmədovun tərtibatı, dekorları belə tamaşanın uğurlu səhnə həllinə geniş imkanlar açmışdır. Onun səhnənin dərinliyində belə göstərməyə çalışdığı "Dar ağacı" özü çox güclü simvol olaraq istifadə edilməklə ədalətsizlik, hökmranlığa qarşı müqavimət, ölümün simvolu, həm də azadlıq uğrunda fədakarlıq rəmzi kimi təqdim edilir. Tamaşanın sonunda məhz Akşinin öz tax-tacının simvolik olaraq dar ağacı ilə əvəzlənməsi səltənətin sonda qançanağı olaraq öz başına yıxılması qədər acılı bir sonluğun nəticəsi olaraq rəssam düşüncəsinin uğurlu təzahürü olaraq təqdim edilir. Rəssam tərəfindən işlənilən simvollar belə əsərin mənasını dərinləşdirir, şifahi səviyyədən konseptual məzmuna qədər yüksəlməsinə gətirib çıxarır.

Mahnıların bəstəkarı olaraq Xatirə Orucovanın, baletmeysteri Çingiz Novruzəliyevin, vokal üzrə müəllim Fərqanə Salamovanın eləcə də musiqisi Azərbaycan və SSRİ Xalq artisti Aqşin Əlizadənin, səhnə döyüşlərinin qurulmasında isə Sahib Novruzovun uğurlu və maraqlı işləmələri tamaşanın ümumi ana xəttinin açılaraq təqdim edilməsində xüsusi olaraq qeyd edilməlidir.

Beləliklə, "Dar ağacı" tarixi pyesinin tamaşasına nəzər yetirdikdə belə bir nəticəyə gələ bilərik ki, Bəxtiyar Vahabzadə bütün poeziyasında olduğu kimi, tarixi pyeslərində də böyük həmçinin ciddi həyat məsələləri üzərində düşünərək xalqın tarixi taleyi, bu taleyi özündə, mübarizələrində əks etdirən maraqlı və orjinal dramaturgiyasının əsas fəlsəfi-estetik düşüncələrini böyük usatlıqla qələmə ala bilmişdir. Eləcə də qeyd etmək lazımdır ki, Vahabzadə dramaturgiyası mövzu cəhətdən tarixi və müasir həyatla bağlı olan pyeslər silsiləsinə şamil edilə bilər. Burada tarixilik və müasirlik vəhdət halında çıxış edir. Bu da böyük şairimizin milli dramaturgiyanın zəngin ənənələrini yaşatmaq əzminin bir daha göstəricisi olaraq maraqla izlənilməkdədir.

**Anar Ərtoğrul Burcəliyev**
**Teatrşünas-tənqidçi**